Ədalət.-2017.-1 avqust.-S.4.

# "BURDAN BİR ATLI KEÇDİ..."

## Vasif Quliyevin yeni kitabı

**Bəri başdan deyim ki, indi barəsində fikirlərimi bölüşəcəyim kitabın müəllifi Qarabağ barəsində düşünən, Qarabağ haqqında məlumatlar əldə etmək istəyən və ən vacibi isə Qarabağı ruhuna, canına hopduran hər kəsin tanıdığı Vasif Quliyev mənim əminliklə deyəcəyim fikrin ünvanıdı:**

- Qarabağda haqqı olan kişi!

Bax, bu fikirdən sonra sözarası onu da deyim ki, Qarabağda, xüsusilə Şuşada hadisələr başlayan gündən indiki ana qədər qələmiylə, əməli fəaliyyətiylə, özü də təmənnasız çalışmalarıyla mənim yadımda qalan iki şəxs də var. Onlardan biri Zahid Abbasov, digəri isə Əli Mahmuddu. Bax, bu üç insan barəsində nəsə yazmaq istəyəndə artıq bir qayda olaraq onlaın mənim üçün hansı dəyərdə olduqlarını mütləq vurğulayıram. Başa düşürəm ki, mənim bu cür yanaşmam kimlərinsə ürəyincə olmaya bilər. Amma ona da əminəm ki, mən öz fikrimi yazıb deyirəm, mən öz fikrimi vurğulayıram. Və heç kimin də fikrinə qarşı deyiləm. İndi gələk sizə təqdim etdiyim kitaba. Kitabın müəllifi Vasif Quliyevdi. Yorulmadan arxivlərdə çalışan, dünyanın hər yerində, hər bir sözünün arasında Qarabağ axtaran Vasif Quliyev! Və bütün yaradıcılığı da Qarabağla bağlı olan Vasif Quliyev! Jurnalist-publisist araşdırmaçı Vasif Quliyev özünün hər bir yazısında, hər bir məqaləsində Dağlıq Qarabağ məkanında, sonra isə bütövlükdə Qarabğda izi qalan, sözü qalan, səsi qalan hər kəsi arayıb axtarır. Onların bütün səcərəsini, bütün həyat yolunu yazıya, kitaba çevirir. Elə "Burdan bir atlı keçdi" kitabı da məhz həmin yuxusuz, arxiv tozunun içrəisində keçən günlərin nişanəsidir. Vasif Quliyev bu kitabı ilə kitab redaktoru Vaqif İsaqoğlunun dediyi kimi bir xəzinən qoyub ortalığa. Səhifələri çevirdikcə, ötən əsrin şəkilləri, tarixi gerçəklikləri bir-bir gəlib dayanır göz önündə. Və onda bir anlıq da olsa düşünürsən ki, düşmənin cayнağında olan bu müqəddəs ünvan Azərbaycan tarixinə kimləri verib, kimləri bağışlayıbdı - istər mədəniyyət, istər ədəbiyyat, istər hərb, istər şəxsiyyət baxımından.






Mən Vasif Quliyevin bu kitabda toplanan yazılarının böyük əksriyyəti ilə dövrü mətbuatda öncədən tanış olmuşdum. Yeri gəlmişkən, xatırladım ki, dvörü mətbuat deyəndə mən təkcə bu günümüzün yazılı mediasını deyil, həm də Sovet döneminin 70-ci illərindən başlayan qəzet və jurnallarını da nəzərdə tuturam. Həmin dövrün "Azərbaycan gəncləri", "Sovet kəndi", "Ədəbiyyat və incəsənət", "Azərbaycan təbiəti", "Mədəni maarif", "Ulduz", "Azərbaycan" və digər qəzet və jurnallarını xatırladıram.

Ümumiyyətlə, Vasif müəllimin bu kitabı Qarabağın aydınlarıyla bağlı bilgilər əldə etmək istəyən hər kəs üçün çox samballı bir mənbədi. Yəni heç bir arxivə müraciət etmədən Vasif Quliyevin ortaya qoyduğu bu kitabdan yararlanmaq olar. Və onu da birmənalı şəkildə demək istəyirəm ki, bu kitab həm də Qarabağı tanımaq istəyənlərə yaxşı bir hədiyyədir.

Bəli, təbii ki, hər kitab, hər söz təkcə müəllifi üçün yox, həm də oxucu üçün bir işıqdı, bir həmsöhbətdi. Məhz bu mənada "Burdan bir atlı keçdi" kitabı da sizlərin hər biri üçün Vasif Quliyevin gözəl hədiyyəsidi. Buyurun, bu hədiyyəni qəbul edin.

**P.S. Onu da deyim ki, kitab bu günlərdə "Şuşa" nəşriyyatında işıq üzü görüb. hələ mətbəə qoxusu canındadı.**

**Əbülfət MƏDƏTOĞLU**